Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev Sarayının qarşısına gələrək, ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri qoyub, xatirəsini ehtiramla anıblar.

Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanovun, Milli Məclis üzvlərinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Nailə Rzaquliyevanın, paytaxtın rayon icra hakimiyyəti başçılarının, müxtəlif dövlət qurumları təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin və ümumtəhsil müəssisələri rəhbərlərinin qatıldıqları konfransda ulu öndər, qüdrətli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafına daim böyük önəm verdiyi, ümummilli liderimizin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyi vurğulanıb.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinə daim diqqət və qayğı göstərdiyi qeyd olunub.

Bakının ümumtəhsil müəssisələrində təhsilin inkişafı, müasir tədris şəraitinin yaradılması, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib. Bildirilib ki, paytaxtın təhsil müəssisələri artıq yeni tədris ilinə hazırdır. Belə ki, Bakı şəhərinin ümumtəhsil məktəblərində 330 mindən artıq şagirdi və onların təlim-tərbiyəsi ilə məşğul olan 34 minə yaxın müəllimi qarşılamaq üçün bütün zəruri tədbirlər həyata keçirilib. Konfransda cəmiyyətin tərəqqisində təhsilin mühüm rolu bir daha vurğulanıb, yeni dərs ilində müəllim və şagirdlərə uğurlar arzulanıb.